# Aslanla Dovşan

© Azərbaycan Nağılları. 5 cilddə, 5-ci cild.
Azərbaycan SSR EA Nəşriyyatı, Bakı - 1964

Qalın meşədə bir aslan yaşayırdı. Bu aslan çox zalım heyvan idi, əlinə keçən heyvanı parçalayıb yeyirdi. Heyvanlar bunun əlindən lap zinhara gəlmişdilər. Günlərin bir günü heyvanlar bir yerə yığıldılar. Söz bir yerə qoydular ki, aslana hər gün bir heyvan versinlər yesin, onlara dəyməsin. Dovşanı aslanın yanına göndərdilər. Dovşan heyvanların sözlərini aslana söylədi. Aslan razı oldu. Şərt qoydular, razılaşdılar.

Bəli, heyvanlar hər gün çöp atırdılar, çöp kimə düşsə onu aslana verirdilər, yeyirdi. Belə-belə bir müddət gəlib keçdi, növbə dovşana düşdü. Dovşan orda-burda girləndi axşama kimi aslanın yanına getmədi. Aslan ac qaldı, çox qəzəbləndi. Axşam dovşan onun yanına getdi. Aslan onu parçalamaq istəyəndə dovşan dedi:
—Acığın tutmasın, məndə günah yoxdu. Sənə yeməyə bir dovşan gətirirdim, bir aslan əlimdən aldı, yedi.

Aslanın ağzı köpükləndi, dedi:
—O hansı aslandı? Nə hədlə mənə gətirilən dovşanı alıb yemişdir. Tez onun yerini mənə de, onu parça-parça eləyəcəyəm.

Dovşan onun qabağına düşüb, bir su quyusunun başına gətirdi, dedi:
—Aslan bu quyunun içinə girdi.

Aslan quyuya baxanda, öz şəklini suda gördu. Elə bildi ki, dovşanı yeyən aslandı. Tullanıb quyuya düşdü, suda boğulub öldü, heyvanların da canı onun zülmündən qurtardı.

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Nərgiz Abadi
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: oktyabr, 2003-cü il